


# "Can Azərbaycan"ın könüllü elçiləri,

## yaxud Şimali Makedoniyanın Beynəlxalq Vizyon Universitetindən Azərbaycana dəstək

> **"Biz Azərbaycanı çox sevdik. Azərbaycana "Can Azərbaycan" deyirik biz. Son vaxtlar Azərbaycanın başına gələn bu şər və müsibətlərə görə, şəhidlərə görəqardaşlarımıza başsağlığı veririk. Şəhidlərimizin məkanı cənnət olar, inşallah"**

***Şimali Makedoniya. Üsküp, Kalkandələn, Qostivar...Üsküp şəhəri. Ona "heykəllər şəhəri" də deyirlər. Makedoniyalı İsgəndərin əzəmətli heykəli. Bütün Makedoniya torpaqlarına həyat verən, türkülərdə öyülənVardar çayı! "Vardarın boyunbağısı" adlandırılan tarixi daş körpü – Fatih Sultan Mehmet körpüsü!Üsküp aeroportundan Qostivara gedən yolda Kalkaldələn şəhərində ziyarət etdiyimiz möhtəşəm, tarixi məscid!Qostivar şəhəri. Adına layiq bir özəlliyə sahib, olduqca qonaqsevər bir şəhərdir Qostivar. Bu torpaqlarda gəzərkən bir daha böyük türk şairi Yəhya Kamal Bayatlının doğulduğu torpaqlarda qalan türklük qoxusu ilə bağlı qələmə aldıqlarını xatırladım: "Türklük Avropaya doğru cezrümeddibiten bir denizgibi o dağlardan çekilmiş, lakin tuzunu bırakmış. Bütün o toprak Türklük kokuyor"g Osmanlılardan sonra bu torpaqlarda qalan, yaşayan və həyat mücadiləsi verən türk övladları valideynlərini itirən, yetim qalan uşaq kimi hər şeydən öncə, məhz əcdadlarından qalan bu qoxuya sarılıb, onların ruhundan güc almağa çalışdılar. Makedoniyalı türk şairi Fahri Kaya "Əlbəttə, varıq" adlı şeirində söylədiyi kimi:***

**"Canlı bireranıt olduğumuz için**
**Bu topraklardaelbetteçoktandırvarız",**

- dedilər. Yüz ildən, düz yüz ildən sonra Balkanlarda və hətta Avropada Türkiyə türkcəsi ilə təhsil vermək hüququna sahib olan bir universitet də yaratmağı bacardılar – Beynəlxalq Vizyon Universiteti!

Şimali Makedoniya ilə bağlı gözəl təəssüratlarım çoxdur. Amma bu yazıda hələlik həmin təəssüratlardan deyil, makedoniyalı türk qardaşlarımızın Azərbaycan sevgisindən söz açmaq istəyirəm. Onların bu böyük sevgisini özündə cəmləşdirən iki türk ziyalısının, iki gözəl insanın Azərbaycan sevdası, doğma vətənimizə olan sonsuz sevgi və heyranlığını çatdırmaq istəyirəm sizlərə. Bir il bundan əvvəl müsahibə aldığım həmin iki dəyərli insanla bu yaxınlarda yenidən həmsöhbət oldum. Müsahiblərim eyni adamlardı. Amma məkan da, zaman da, mühit də fərqli idi. Ötən ilin sentyabr ayında Şimali Makedoniyadan önəmli bir toplantıda - Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısında iştirak etmək üçün Bakıya gələn türk qardaşlarımızla - Gostivar şəhərində fəaliyyət göstərən Beynəlxalq Vizyon Universitetinin professorları, universitetin rektoru FadilHoca və



prorektor Abdülməcid Nurəddinlə söhbətimizi oxucularımızaçatdırmışdıq. Daha sonra makedoniyalı qardaşlarımızın təhsil nailiyyətləri ilə bağlı daha iki yazımız da dərc olunmuşdu. Bu ilin fevral ayında Beynəlxalq Vizyon Universitetinin təşkil etdiyi bir neçə əhəmiyyətli tədbirə - Usküpdə Kiril MetodiUniversitetinində Divan ədəbiyyatına, dahi Füzuliyə, Qostivarda BVU-da türk xalqının böyük şəxsiyyətlərindən olan Turan Yazqana həsr olunan iki konfransa və Xocalı soyqırımının anım gününə dəvət aldım. Hər üç tədbirdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylu ilə bərabər iştirak edirdik. Hər iki universitetdəki məruzə və çıxışlarımız böyük maraqla qarşılandı. Bu unudulmaz təəssüratlarla zəngin və əhəmiyyətli səfər çərçivəsində önəmli bir sənəd - Beynəlxalq Vizyon Universiteti ilə AMEA Nəsimi adına Dilçilik İnstitutu arasında əməkdaşlıq müqaviləsi də imzalandı. Konfranslar bitdikdən sonra mən bir müddət Şimali Makedoniya arxiv və kitabxanalarında araştırma aparmaq üçünGostivarda qalmalı oldum.Adında qonaqsevərlik anlamı da daşıyan Qostivar şəhərində qonaq olmaq!

***Uzun illərdən bəri dostluq və qardaşlıq sevgisiylə bağlandığım və hal-hazırda Beynəlxalq Vizyon Universitetində çalışan, Türk dünyasının iki dəyərli insanı Sevil xanım Abbasova İrevanlı və onun həyat yoldaşı dos.dr. Atilla-Jormanın ailə ocağının, eləcə də bütün Vizyon ailəsinin qonaqpərvərliyinə heyran oldum!Amma təəssüf ki, dünyanı bürüyən pandemiya üzündən digər ölkələrdə olduğu kimi, Şimali Makedoniyada da bütün təhsil müəssisələri, eləcə də arxiv və kitabxanalar müvəqqəti olaraq bağlandı və mən araşdırmalarım üçün hələlik yalnız internet saytları, elektron kitabxanalar və əldə etdiyim azsaylı kitab və dərgilərlə kifayətlənməli oldum. Qeyd edim ki, bu çətin günlərdə bütün qüvvəsini səfərbər edərəkonlayn olaraq öz fəaliyyətini davam etdirən Beynəlxalq Vizyon Universiteti öz əzmkarlığı ilədə təhsil sahəsində əsl örnək oldu.*** Avropada türkcə ali təhsilin tək ünvanı olan bu universitetdə bütün fakültələr və kurslar üzrə ardıcıl olaraq onlayn dərslər keçirildi, onlaynseminarlar, konfranslar təşkil edildi və təbii ki, semestr sonu imtahanlarda da uğurlu nəticələr əldə edildi. Sərhədlər açıldıqdan sonra Vətənə dönərkən ötən il Bakıda müsahibim olan iki önəmli insanla – BVU-nun rektoru prof.dr. FadilHoca və prorektor prof.dr.Abdulməcid Nurəddinlə yenidən görüşüb həmsöhbət oldum.Pandemiya şəraitində universitetin gördüyü işlərdən,onlayn təhsildə əldə etdikləri uğurlardan,universitetin gələcək planlarından bəhs etdik. Qeyd edim ki, bütün bunlar barədə - Makedoniya səfərim, Gostivar şəhəri və xüsusilə, Avropada tarix yazan Beynəlxalq Vizyon Universiteti barədə Azərbaycan oxucusu, inşallah, hazırladığım kitabda tanış olacaqlar. Amma bu yazıda əsl istəyim, makedoniyalı türk qardaşlarımızın məhz Azərbaycan sevgisini, doğma vətənimiz Azərbaycanla bağlı düşüncə və arzularını sizinlə bölüşməkdir.

Hələ bir il öncə, bu iki dəyərli türk övladı, "evladi-fatihan"la görüşüb söhbət edərkən, məni ən çox təsirləndirən onların,Bakıda keçirilən beynəlxalq əhəmiyyətli bir toplantıda -Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısındaməhz Azərbaycan üçün, Dağlıq Qarabağla bağlı problemində vətənimizin haqlarını müdafiə etmək məqsədilə iştirak etmələri olmuşdu. Xatırladım ki, bu barədə daha ətraflı "Bakı Vyanadan da gözəldir, yaxud Yolunuz açıq olsun, FadilHoca adlı" portret-müsahibəmizdə tanış olmuşdunuz. Həmin müsahibənin sonunda Fadil bəy "Azərbaycandakı qardaşlarınıza söyləmək istədiyiniz bir söz varmı?" – sualıma, "Azərbaycana yaxşı, həm də çox yaxşı sahib çıxın.Azərbaycan bizim canımız, gözümüzdürg Mən ikinci dəfədir, gəlirəm. Hər gələndə də çətinliklə ayrılıram AzərbaycandangAzərbaycan, həqiqətən, çox önəmli bir dövlətdir. ..." – deyə cavab verməşdi.

***Eyni sualı bu dəfə soruşmadan cavablandırdı Fadil bəy. GörüşübvidalaşarkənAzərbaycanda yaşanılan ağrıacılı günlər (Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi atəşə tutması, qəhrəman döyüşçülərimizin, generalımızın şəhid olması xəbərini yenicə almışdıq.Vətəndən uzaqda bu xəbəri eşitməyin nə qədər ağır və acı olduğunu isə qürbətdə yaşayanlar daha yaxşı bilər...)barədə bunları söylədi: "Biz Azərbaycanı çox sevdik. Azərbaycana "Can Azərbaycan" deyirik biz. Son vaxtlar Azərbaycanın başına gələn bu şər və müsibətlərə görə, şəhidlərə görəqardaşlarımıza başsağlığı veririk. Şəhidlərimizin məkanı cənnət olar, inşallah.***

**(davamı gələn sayımızda)**

**Dos.dr.**
**Şəlalə Ana Hümmətli**